# “BAKI FOND BİRJASI”

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2018-ci il tarixinə

## *MALİYYƏ HESABATLARI*

## *VƏ*

## *MÜSTƏQİL AUDİTOR RƏYİ*

Premium Audit

**Müstəqil auditorun hesabati**

"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə

**Maliyyə hesabatlarının auditinə dair hesabat**

***Rəy***

Biz "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin

qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti***

Bizim məqsədimiz edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk. Biz həmçinin:

• Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

• Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük

• İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

• Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz

fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

***"Premium Audit" MMC-nin direktoru***
***Kərimov Nicat Natiq oğlu***

***"Premium Audit" MMC-nin auditoru***
***Quliyev Asif Hidayət oğlu (qeydiyyat nömrəsi SA/209)***

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti Premium Audit Limited Liability Company Azerbaijan Republic

**11 aprel 2019-cu il**
**Bakı şəhəri Azərbaycan Respublikası**

**31 dekabr 2018–ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə Rəhbərliyin məsuliyyəti haqqında hesabat.**

Müstəqil auditor rəyinin 2-3-cü səhifələrində təqdim olunan müstəqil auditorların məsuliyyəti ilə əlaqəli şəkildə oxunması tələb olunan bu hesabat, "Bakı Fond Birjası" QSC nin (bundan sonra Şirkət) maliyyə hesabatları ilə bağlı rəhbərliyin məsuliyyətlərini müvafiq olaraq müstəqil auditorların məsuliyyətlərindən fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik şirkətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda baş verən dəyişiklikləri düzgün əks etdirən, habelə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (BMHS) uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar olaraq rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Məntiqli və məqsədə müvafiq qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların BMHS ın tələblərinə uyğunluğuna;
- Şirkətin proqnozlaşdırıla bilən dövr ərzində öz fəaliyyətini davam edəcəyini güman etmək mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuliyyət daşıyır:

- Şirkət daxilində səmərəli və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Şirkətin maliyyə hesabatlarının BMHS tələblərinə uyğunluğunu təmin etmək məqsədilə şirkətin maliyyə vəziyyəti barədə hər zaman kifayət qədər dəqiq məlumat verən mühasibat qeydlərinin müvafiq qaydada aparılmasına;
- Normativ mühasibat qeydlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılmasına;
- Şirkətin aktivlərinin mühafizəsini təmin edə biləcək məqsədəmüvafiq tədbirlərin görülməsinə;

- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2018-ci il tarixinə bitən il üzrə Şirkətin İdarə Heyətinin sədri Namazov Vüqar, maliyyə direktoru Babayeva Dilarə olmuşdur və ilin Maliyyə hesabatları 11 aprel 2019-cu il tarixində buraxılmaq üçün rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

| | |
|---|---|
| ___________ ***Namazov Vüqar*** | ____________ ***Gəncəliyev Eldar*** |
| ***İdarə Heyətinin sədri*** | ***Mühasib*** |

Bakı şəhəri, 11 aprel 2019

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**
# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
**31 dekabr 2018-ci il tarixinə**

**Azərbaycan manatı ilə**

| | | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüdətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | 9 | 238.717 | 337.080 |
| Qeyri-maddi aktivlər | 9 | 105.554 | 144.979 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **344.271** | **482.059** |
| *Qısamüddətli aktivlər* | | | |
| Kredit təşkilatlarından alınacaq | | 4.883.200 | 3.225.184 |
| Komissiya üzrə debitor borc | | 209.592 | 316.667 |
| Satıla bilən investisiyalar | | 1.376.163 | 725.270 |
| Pul vəsaitləri və ekvivalentləri | 5 | 1.411.351 | 263.666 |
| Vergilər üzrə avans | | 390.659 | 28.727 |
| Digər aktivlər | 12 | 179.429 | 6.500 |
| **Cəmi qısamüddətli aktivlər** | | **8.450.394** | **4.566.014** |
| **CƏMİ AKTİVLƏR** | | **8.794.665** | **5.048.073** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Cari mənfəət vergisi öhdəliyi | | 938.456 | 374.640 |
| Digər öhdəliklər | 13 | 478 | 20.368 |
| **Cəmi cari öhdəliklər** | | **938.934** | **395.008** |
| **Uzun müddətli öhdəliklər** | | | |
| Təxirə salınmış mənfəət vergisi | | 0 | 11.505 |
| **Cəmi uznmüddətli öhdəliklər** | | **0** | 11.505 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | | **406.513** |
| **Kapital** | | | |
| Səhmdar kapitalı | | 1.260.000 | 1.260.000 |
| Emissiya gəliri | | 151.800 | 151.800 |
| Bölüşdürülməmiş mənfəət | | 6.443.931 | 3.229.760 |
| **CƏMİ KAPİTAL** | | **7.855.731** | **4.641.560** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **8.794.665** | **5.048.073** |

___________ ***Namazov Vüqar*** ____________ ***Gəncəliyev Eldar***

***İdarə Heyətinin sədri*** ***Mühasib***

Bakı şəhəri, 11 aprel 2019

# "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti
# MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT
# 31 dekabr 2018-ci il tarixinə

**Azərbaycan manatı ilə**

| | | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| Əqdlər üzrə tarif gəlirləri | 6 | 5.477.929 | 2.712.700 |
| Digər xidmət gəlirləri | 7 | 215.095 | 51.300 |
| **Cəmi gəlirlər** | | **5.693.024** | **2.764.000** |
| | | | |
| İşçi heyətə əmək haqqı və digər hesablamalar | 9 | (858.882) | (696.224) |
| Ümumi və inzibati xərclər | 11 | (414.280) | (197.958) |
| Əmlak və avadanlıqların köhnəlməsi | 10 | (50.644) | (72.082) |
| Qeyri-maddi aktivlərin köhnəlməsi | 10 | (41.638) | (41.679) |
| Əsas vəsaitlərin silinməsindən gəlir | | 0 | 83 |
| **Cəmi əməliyyat xərcləri** | | **(1.365.444)** | **(1.007.860)** |
| | | | |
| **Əməliyyat mənfəəti / zərəri** | | | **1.756.140** |
| | | | |
| Faiz gəlirləri | 8 | 328.170 | 163.684 |
| Məzənnə fərqi üzrə mənfəət/zərər | | (340) | (76.472) |
| Keçmiş illərdə tanınmış gəlirin silinməsi | | (4.179) | 0 |
| Keçmiş illərdə tanınmış xərcin silinməsi | | 5.396 | 0 |
| | | | |
| **Mənfəət vergisindən əvvəl mənfəət/zərər** | | **4.656.627** | **1.843.352** |
| | | | |
| Mənfəət vergisi | | (938.456) | (372.070) |
| | | | |
| **İl üzrə mənfəət/zərər** | | **3.718.171** | **1.471.282** |

___________ *Namazov Vüqar*

____________ *Gəncəliyev Eldar*

*İdarə Heyətinin sədri*

*Mühasib*

Bakı şəhəri, 11 aprel 2019

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2018-ci il tarixinə**

**Azərbaycan manatı ilə**

| | | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:*** | | | |
| ***Mənfəət vergisindən əvvəl mənfəət/zərər*** | | **4.656.627** | **1.843.352** |
| Əmlak və avadanlıqlarının köhnəlməsi | 10 | 50.644 | 72.082 |
| Əmlak və avadanlıqların silinməsindən +/- | | 0 | (83) |
| Qeyri maddi aktivlərin köhnəlməsi | 10 | 41.638 | 41.679 |
| Məzənnə fərqi üzrə mənfəət/zərər | | (340) | 76.472 |
| ***Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan nağd pul vəsaiti hərəkətləri.*** | | **4.748.569** | **2.033.502** |
| ***Əməliyyat aktiv və öhdəliklərində dəyişiklər:*** | | | |
| Digər aktivlərdə artma/azalma | | (654.276) | (1.256) |
| Komissiya üzrə debitor borcunda +/- | | (107.075) | (271.134) |
| Əvvəlcədən ödənilmiş vergilərdə +/- | | (11.505) | (16.361) |
| Digər öhdəliklərdə artma | | 181.506 | (5.399) |
| ***MV əvvəl əməliyyat fəaliyyətindən əldə edilən pul*** | | **4.157.219** | **1.739.352** |
| Ödənilmiş mənfəət vergisi | | (680.500) | 0 |
| ***Əməliyyat fəaliyyətindən əldə edilən pul vəsaiti*** | | **3.476.719** | **1.739.352** |
| ***İnvestisiya fəaliyyətindən pul vəsaitinin hərəkəti*** | | | |
| Əmlak və avadanlıqların alınması | | (19.785) | (21.596) |
| Qeyri-maddi aktivlərin alınması | | 0 | (1.734) |
| Əmlak və avadanlıqların satışında daxilolma | | 0 | 2.500 |
| Kredit təşkilatlarından alınacaq məbləğlərdə +/- | | (2.308.909) | (674.753) |
| Satıla bilən investisiyaların alınması | | 0 | (725.270) |
| ***İnvestisiya fəaliyyətindən nağd pul vəsaiti +/-*** | | **(1.148.025)** | **(1.420.853)** |
| ***Maliyyə fəaliyyətindən yaranan pul vəsaitinin hərəkəti:*** | | | |
| Adi səhmlərin buraxılması +/- | | (900) | 0 |
| Valyuta məzənnəsinin təsiri +/- | | 560 | (76.472) |
| ***Maliyyə əməliyyatlarından yaranan pul vəsaiti +/-*** | | **(340)** | **(76.472)** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərində +/-*** | | **1.147.685** | **242.027** |
| ***Pul vəsaitləri və onların ekvivalentləri ilin əvvəlin*** | 5 | **263.666** | **21.639** |
| ***Pul vəsaitləri və onların ekvivalentləri ilin sonuna*** | 5 | **1.411.351** | **263.666** |

___________ *Namazov Vüqar* ____________ *Gəncəliyev Eldar*

*İdarə Heyətinin sədri* *Mühasib*

Bakı şəhəri, 11 aprel 2019

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti**
**KAPİTALDA DƏYİŞİKLİKLƏRHAQQINDA HESABAT**
**31 dekabr 2018-ci il tarixinə**

**Azərbaycan manatı ilə**

| | Səhmdar kapitalı | Emissiya gəliri | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2016-cı il** | **1.260.000** | **151.800** | **1.758.478** | **3.170.278** |
| | | | | |
| 2017-ci il üzrə mənfəət | - | - | 1.471.282 | 1.471.282 |
| | | | | |
| **31 dekabr 2017-ci il** | **1.260.000** | **151.800** | **3.229.760** | **4.641.560** |
| | | | | |
| 2018-ci il üzrə mənfəət | - | - | 3.718.171 | 3.718.171 |
| 2017-ci ilin elan edilmiş dividendi | - | - | (504.000) | (504.000) |
| | | | | |
| **31 dekabr 2018-ci il** | **1.260.000** | **151.800** | **6.443.931** | **7.855.731** |

___________ *Namazov Vüqar*

*İdarə Heyətinin sədri*

____________ *Gəncəliyev Eldar*

*Mühasib*

Bakı şəhəri, 11 aprel 2019

## 1. Ümumi məlumat

### Şirkət və onun əsas fəaliyyəti

“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti (“Şirkət”) 21 iyul 2000-ci il tarixində təsis edilmişdir və Azərbaycan Respublikasında fəaliyyət göstərir. Şirkətin əsas fəaliyyəti Azərbaycan Respublikası daxilində bütün növ qiymətli kağızlarla ticarət əməliyyatlarının təşkil edilməsidir. Şirkət Azərbaycan Prezidenti yanında Dövlət Qiymətli Kağızlar Komitəsinin (DQKK) verdiyi lisenziya əsasında 2000-ci ilin fevral ayından bəri fəaliyyət göstərir.

### Hüquqi ünvanı və fəaliyyətyeri

Şirkətin rəsmi hüquqi ünvanı belədir: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1000, Bülbül prospekti 19.

### Şirkətin səhmdarları

2018 ci il ərzində şirkətin səhmdarları bunlar olmuşlar:

| | **31 dekabr 2018-ci il %** | **31 dekabr 2017- ci il %** |
|---|---|---|
| Azərbaycan Sənaye Bankı ASC | 9.52 | 9.52 |
| Dəmir İnvestisiya Şirkəti QSC | 4.76 | 4.76 |
| Kapital Partners MMC | 4.76 | 4.76 |
| Brokdil-Az MMC | 4.76 | 4.76 |
| Azər-Türk Bank ASC | 4.76 | 4.76 |
| BoB broker MMC | - | 4.76 |
| Bank of Baku ASC | 4.76 | - |
| Kapital Bank ASC | 4.76 | 4.76 |
| Global Menkul Deqerler A.S. | 4.76 | 4.76 |
| Borsa İstanbul Anonim Şirketi | 4.76 | 4.76 |
| Mars İnvestment MMC | 4.76 | 4.76 |
| Respublika İnvest MMC | 4.76 | 4.76 |
| Kapital Menecment İnvestisiya ASC | 4.76 | 4.76 |

| | | |
|---|---|---|
| Azərbaycan Beynəlxalq Bankı ASC | 4.76 | 4.76 |
| UniKapital İnvestisiya Şirkəti ASC | 4.76 | 4.76 |
| Yunayted Kredit Bank ASC | 4.76 | 4.76 |
| Yapı Kredi Bank Azərbaycan ASC | 4.76 | 4.76 |
| Caspian Financial MMC | 4.76 | 4.76 |
| Xalq Kapital İnvestisiya Şirkəti QSC | 4.76 | 4.76 |
| Standart Kapital MMC | - | 4.76 |
| İnvest-AZ İnvestisiya Şirkəti QSC | 9.52 | 4.76 |
| **CƏMİ** | **100** | **100** |

## 2. Hesabatların tərtib edilməsinin əsas prinsipləri

*Uyğunluq prinsipi*

Hazırki maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun şəkildə hazırlanmışdır.

*Təqdimatın əsasları*

Maliyyə hesabatları ilkin dəyər prinsipinə əsasən hazırlanmışdır.

*Funksional və hesabat valyutası*

Cəmiyyətin funksional valyutası və bu maliyyə hesabatlarının tərtib olunduğu valyuta Azərbaycan Respublikasının Milli Valyutası olan Azərbaycan Manatıdır (AZN). Manatla tərtib olunmuş bütün maliyyə məlumatları onluğa qədər yuvarlaqlaşdırılmışdır.

## 3. Cəmiyyətin əməliyyat mühiti

**Azərbaycan Respublikası** Neft ixrac edən bir ölkə kimi və neftin dövlət büdcəsinin həcmi, elecə də dəyəri etibarı ilə əsas paya sahib olduğu üçün Azərbaycan iqtisadiyyatı neftin dəyərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu səbəbdən sözü gedən sahənin qiymətlərində yaranan fərqlər iqtisadiyyat üzərində böyük təsirə malikdir və neftin dəyərindəki kəskin dəyişikliklər valyutanın dəyərdən düşməsi, iqtisadiyyat və sənaye sahələrinin inkişafında ləngimələr, həmçinin pul vəsaitlərinin dövriyyəsində yaranan qeyri sabitlik kimi bu və ya digər makro-iqtsadi faktorların mövcudluğuna gətirib çıxarır.

Azərbaycan höküməti büdcə gəlirlərinin aşağı enməsinin qarşısını almaq məqsədilə dövlət xərclərinin azadılmasını deyil, alternativ maliyyə mənbələrindən istifadə edilməsini hədəfləyir. Azərbaycan Respublikasının Mərkəzi bankı beynəlxalq valyuta bazarında rəqabət qabiliyyətini qoruyub saxlamaq məqsədilə,valyuta siyasətini dəyişərək 21 fevral 2015-ci il tarixli məlum bəyanatı

ilə Azərbaycan manatının dəyərinin ABŞ dollarına nisbətdə 34 % və 21 dekabr 2015-ci il tarixli mətbuat bəyanatı ilə 48% endirilməsi haqqında qərarını açıqlamışdır. Mərkəzi Bankın bu müdaxilə siyasəti iqtisadiyyatın yeni tarazlıq səviyyəsinə çatdırılması üçün atılan bir addımdır .

Makro-iqtisadi amillərin gözlənilən dəyişiklikləri səbəbindən rəhbərlik bu dəyişikliklərin şirkətinin əməliyyatları üzərində təsirini dəqiq qiymətləndirmək və yarana biləcək nəticələrlə bağlı hər hansı bir ölçü göturmək iqtidarındadır. Rəhbərlik, mövcud şəraitdə şirkətin fəaliyyətinin davamlılığını və inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 4. Əsas Uçot Prinsiplərinin Xülasəsi

**Maliyyə alətlərin ilkin tanınma və ölçülmə qaydaları.** Cəmiyyət müqaviləyə əsasən öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliklərini öz maliyyə vəziyyəti haqqında hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı əməliyyat hesablaşma günü tanınır.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan bütün digər maliyyə aktivləri və passivlər ilkin olaraq ədalətli dəyərlə ölçülür, gəlir və gəlirin əldə olunması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövrlərdə bu əməliyyat dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri öz əksini tapır.

**Pul vəsaitləri və onların ekvivalentləri.** Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri ilə əks etdirilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərindən, tələbli depozitlərdən, digər qısamüddətli və onun pul vəsaitinə çevrilməyə hazır olan yüksək likvidli investisiyalardan ibarətdir.

**Əmlak və avadanlıq.** Əmlak və avadanlıq ilkin dəyərindən yığılmış amartozasiya və yığılmış qiymətdən düşmə zərərləri (əgər varsa) çıxılmaqla nəzərə alınır. Son qalıq dəyəri (əgər varsa) nəzərə alınmaqla, aşağıdakı dərəcələrə uyğun olaraq azalan qalıq amotizasiya metodu istifadə etməklə hesablanan nəqliyyat və kompyuter avadanlıqlardan başqa, bütün digər əməliyyat fəaliyyətində olan maddi aktivlər üçün amortizasiya azalan qalıq metodu ilə hesablanır. Hər bir hesabat dövrünün sonunda əsas vəsaitlərin qalıq dəyərlərinə, istifadə müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır, lazım gəldikdə düzəlişlər edilir.

| | |
|---|---|
| Nəqliyyat vasitələri | 7 ildən 8 ilə dək |
| Kompüter avadanlıqları | 5 ildən 6 ilədək |
| Mebel və avadınlıqlar | 5 ildən 7 ilədək |
| Qeyri maddi aktivlər | 5 ildən 10 ilədək |

Əmlak və avadanlığın balans dəyərinə hər bir hesabat tarixində bərpa edilə bilən məbləğlərinin artıq qeyd edilib-edilməməsini təyin etmək üçün yenidən baxılır və balans dəyərinin qiymətləndirilmiş bərpa edilə bilən məbləğindən artıq olduğu halda, aktivlər öz bərpa edilə bilən məbləğinə qədər aşağı salınır. Qiymətdən düşmə zərərinin tanınmasından sonra əmlak və avadanlığın amortizasiya xərci aktivlərin yenidən hesablanmış, gələcək dövrlərdə balans dəyərindən qalıq dəyərini (əgər varsa) çıxılmaqla, sistematik əsasda faydalı istifadə müddəti ərzində təyin etmək üçün düzəldilmişdir.

Daxilolmalar üzrə amortizasiya aktivin istifadəyə verildiyi aydan hesablanır, aktivin silindiyi ayda isə amorizasiya hesablanmır. Əmlak və avadanlığın satışından mənfəət və ya zərərlər cari mənfəət və zərər hesabına daxil edilir, istisna olaraq, yenidən qiymətləndirmə artımı birbaşa bölüşdürülməmiş mənfəətə köçürülür. Müvafiq hallarda, maddə ilə bağlı iqtisadi faydaların Cəmiyyətə daxil olacağı və maddənin dəyəri etibarlı ölçülə bilinəcəyi ehtimal olunduqda, sonrakı dəyərlər ayrıca aktiv kimi aktivin balans dəyərinə daxil olunur və ya ayrıca aktiv kimi tanınır.Bütün digər təmir və saxlanma xərcləri mənfəət və zərərə silinir.

**Qeyri-maddi aktivlər.** Cəmiyyətin bütün qeyri-maddi aktivləri hesabatda faktiki maya dəyəri ilə əks etdirilir.Onların faydalı istifadə və ya xidmət müddətinə uyğun olaraq amortizasiya normaları müəyyən edilir. Hüquqlar və ya lisenziya qüvvədə olan müddətlərə uyğun olaraq amortizasiya hesablanır. Faydalı xidmət müddəti ərzində düz xətli amortizasiya metoduna əsasən amortizasiya olunur.Əgər qeyri – maddi aktivlərin faydalı istifadə müddəti müəyyən deyilsə, bu halda uçot siyasətinə əsasən şərti olaraq bu müddət 10 (on) il götürülür və düz xətli amortizasiya metodu ilə hər ilə 10% amortizasiya hesablanır.

**Xarici valyuta əməliyyatları.** Xarici valyuta ilə aparılan əməliyyatlar, əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnədə digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan

əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnəsi yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Gəlirin tanınması.**

Gəlir iqtisadi faydanın şirkətə gələcəyi təqdirdə gəlirin etibarlı ölçülə bilindiyi halda tanınır. Xərclər çəkildiyi zamanda tanınır. Gəlirin tanınmasından əvvəl aşağıdakı xüsusi tanınma şərtləri də nəzərə alınmalıdır:

- əqdlər üzrə tarif (ticarət əlaqəli və ya xidmət) gəlirləri uyğun xidmətin göstərildiyi zamanda tanınır.
- Faiz gəlirləri və faiz xərcləri məcmu gəlir hesabatında hesablama metodu əsasında effektiv faiz dərəcəsi ilə tanınır.
- Bütün digər gəlirlər və xərclər hesablama metodu əsasında tanınır.

**Avans ödənişləri.** Avans ödənişləri, nominal dəyərlə hesabatlarda göstərilir.

**Nizamnamə kapitalı.** Nizamnamə kapitalına edilən əlavələr faktiki ödənilmiş dəyəri ilə tanınır. Adi səhmlər üzrə dividendlər, səhmdar kapitalını azaldan maddə kimi təqdim edilir. Hesabat dövründən sonrakı dövrdə elan edilən dividendlər isə, MHBS 10 "Hesabat dövründən sonra baş vermiş hadisələr" standartına uyğun olaraq hesabat dövründən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

## 5. Pul vəsaitləri və onun ekvivalentləri

| | **31 dekabr 2018** | **31 dekabr 2017** |
|---|---|---|
| Kassada olan pul vəsaiti | 768 | 1.641 |
| Bank hesablarında pul vəsaiti | 1.410.583 | 262.026 |
| **CƏMİ** | **1.411.351** | **263.666** |

### 6. Əqdlər üzrə tarif gəlirləri

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankının buraxdığı notlar | 4.890.235 | 2.080.575 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Buraxdığı xəzinə istiqrazları | 393.362 | 326.788 |
| Azərbaycan Respublikasının İpoteka Fondunun buraxdığı notlar | 122.420 | 144.910 |
| Korporativ istiqrazlar | 22.693 | 43.714 |
| Korporativ səhmlər | 14.154 | 10.333 |
| Repo əməliyyatları üzrə | 35.065 | 3.077 |
| Törəmə maliyyə alətləri | - | 103.303 |
| **CƏMİ** | **5.477.929** | **2.712.700** |

### 7. Digər xidmət gəlirləri

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| Ticarət sisteminə qoşulma haqları | 120.000 | 24.300 |
| Listinq | 13.475 | 11.000 |
| Üzvlük haqları | 74.000 | 16.000 |
| Sair əməliyyat gəlirləri | 7.620 | -- |
| **CƏMİ** | **215.095** | **51.300** |

### 8. Faiz gəlirləri

| | | |
|---|---|---|
| Depozitlər üzrə gəlirlər (faiz) | 279.254 | 152.051 |
| İstiqraz üzrə gəlirlər (faiz) | 48.916 | 11.633 |
| **CƏMİ** | **328.170** | **163.684** |

## 9. İşçi heyətlə əmək haqqı və digər hesablaşmalar

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| Əmək haqqı və diğər hesablamalar | 690.283 | 696.224 |
| Sosial sığorta haqları | 151.816 | - |
| Cari il üçün hesablanmış kompensasiya | 16.783 | - |
| **CƏMİ** | **858.882** | **696.224** |

## 10. Torpaq, tikili və avadanlıqlar

| | Mebel, kompüter inventarları | Nəqliyyat vasitələri | Digər | Cəmi əmlak və avadanlıq | Qeyri maddi aktiv | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31dekabr 2016-ci il tarixinə balans dəyəri** | **377.933** | **363.800** | **125.693** | **867.426** | **601.888** | **1.469.314** |
| Daxilolmalar | 20.469 | 1.127 | | 21.596 | 1.734 | 23.330 |
| Xaricolmalar | (5.984) | | - | (5.985) | - | (5.985) |
| **31 dekabr 2017-ci il tarixinə balans dəyəri** | **392.418** | **364.927** | **125.693** | **883.037** | **603.622** | **1.486.659** |
| Daxilolmalar | | 19.135 | 650 | 19.785 | | 19.785 |
| Xaricolmalar | | | | | (174.677) | (174.677) |
| **31 dekabr 2018-ci il tarixinə balans dəyəri** | **392.417** | **384.062** | **126.343** | **902.822** | **428.945** | **1.331.767** |
| **31 dekabr 2016-cı ilyığılmış amortizasiya** | **(351.324)** | **(191.081)** | **(15.415)** | **(557.820)** | **(414.069)** | **(971.889)** |
| Amortizasiya ayırmaları | (4.647) | (48.865) | (5.415) | (58.927) | (42.117) | (101.044) |
| Xaricolmalar üzrə | 3.286 | | | 3.286 | | 3.286 |
| **31 dekabr 2017-cı ilyığılmış amortizasiya** | **(352.685)** | **(239.946)** | **(20.830)** | **(613.461)** | **(456.186)** | **(1.069.647)** |
| Amortizasiya ayırmaları | (6.832) | (39.351) | (4.461) | (50.644) | (41.638) | (92.282) |
| Xaricolmalar üzrə | | | | | 174.433 | 174.676 |
| **31 dekabr 2018-ci il yığılmış amortizasiya** | **(359.517)** | **(279.297)** | **(25.291)** | **(664.105)** | **(323.391)** | **(987.496)** |
| **31 dekabr 2018-ci il tarixinə qalıq dəyəri** | **32.900** | **104.765** | **101.052** | **238.717** | **105.554** | **344.271** |

## 11. Ümumi və inzibati xərclər

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| İcarə xərcləri | 50.316 | 43.071 |
| Kommunal xərclər | 30.371 | 27.087 |
| Təmir və texniki xidmət | 1.594 | 19.453 |
| Üzvlük haqları AFBİA | 1.200 | 11.700 |
| Peşəkar xidmət haqları | 10.000 | 10.000 |
| Nəqliyyat xərcləri | 16.104 | 10.000 |
| Rabitə xərcləri | 9.723 | 9.999 |
| Sığorta xərcləri | 14.215 | 9.995 |
| Təsərrüfat xərcləri | 2.375 | 8.941 |
| Bank xidməti | 10.018 | 7.496 |
| İşçilərin tədris xərcləri | 5.000 | 6.113 |
| Mətbəə və kargüzarlıq | 11.198 | 5.516 |
| Ezamiyyə və tədris xərcləri | 12.672 | 4.522 |
| Konfrans xərcləri | 1.328 | 3.758 |
| Digər vergilər (əmlak) | 1.699 | 1.875 |
| Reklam və marketinq xərcləri | 1.741 | 1.639 |
| Digər xərclər | 2.590 | 16.793 |
| CETA sisteminin icarəsi | 196.908 | -- |
| AR MBNP na üzvlük | 16.935 | -- |
| Ezamiyyə və digər korporativ xərclər | 18.293 | -- |
| **CƏMİ** | **414.280** | **197.958** |

Qeyd etmək lazımdır ki, cari ildə tanınan sığorta xərcləri 2017-2018 ci ildə bağlanan sığorta müqavilələrinin şərtlərini əsas tutaraq uyğun illər üzrə 2017-ci ildə 6.480 , 2018-ci ildə isə 7.735 manat , ümumilikdə 14.215 manat təşkil edir.

## 12. Sair qısamüddətli aktivlər

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| İşçilərdən alacaqlar | 373 | 3.543 |
| Qabaqcadan ödənilmiş sığorta | 8.059 | 2.481 |
| Əvvəlcədən ödənilmiş xərclər | 193 | 193 |
| Digər qısamüddətli aktivlər | 627 | - |
| QK alışı MDM | 170.177 | 283 |
| **CƏMİ** | **179.429** | **6.500** |

## 13. Digər öhdəliklər

| | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|
| Ödənilməli peşəkar xidmət haqqı | 0.0 | 13.978 |
| Üzvlük haqqı | 0.0 | 5.641 |
| Təchizatçılara ödənilməli vəsaitlər | 0.0 | 487 |
| Digər qısamüddətli aktivlər | 478 | 262 |
| **CƏMİ** | **478** | **20.368** |

**Hesabat tarixindən sonra baş vermiş hadisələr.**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisə baş verməmişdir.